Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 19 ” dekabr tarixli
796s nömrəli Sərəncamı ilə
**təsdiq edilmişdir.**

**2026–2029-cu illər üçün Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair**

# TƏDBİRLƏR PROQRAMI

## 1. Qısa xülasə

Azərbaycan Respublikasının ərazisində təbii müalicə ehtiyatlarının, müalicə-sağlamlaşdırma yerlərinin və kurortların öyrənilməsi, istifadəsi, inkişafı və mühafizəsi mühüm rol oynayır. Sağlamlıq turizminin inkişafı ölkənin zəngin təbii resursları ilə sıx bağlıdır. Belə ki, Naftalan neftinin və ondan hazırlanan preparatların istifadəsi sağlamlıq turizminin inkişafında xüsusi əhəmiyyətə malikdir və onun müalicəvi təsirinin olması beynəlxalq miqyasda tanıdılmasını zəruri edir.

“2026–2029-cu illər üçün Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair Tədbirlər Proqramı”nda (bundan sonra – Tədbirlər Proqramı) bu sahədə müşahidə edilən qlobal trendlər və onların təsiri qiymətləndirilmiş, mövcud vəziyyət təhlil edilmiş, hədəf göstəricilər və prioritet istiqamətlər, o cümlədən icra müddətləri qeyd edilməklə müvafiq tədbirlər, əsas və digər icraçılar, gözlənilən təsirlər, icra mexanizmləri əks olunmuşdur.

Tədbirlər Proqramı Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin yeni tibbi araşdırmalar, elmi tədqiqatlar vasitəsilə öyrənilməsinə, həmçinin beynəlxalq səviyyədə tanıdılmasına və bu məhsulların tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına yönəldilmişdir.

## 2. Qlobal trendlər

Naftalan neftindən sadəcə sanatoriya-kurort müəssisələrində deyil, eləcə də tibb və farmakologiya sahələrində də geniş istifadə olunur. Belə ki, müalicə məqsədilə Naftalan neftindən dərman vasitələri və müxtəlif preparatlar hazırlanır. Məhz bu səbəbdən çıxarılan Naftalan neftinin sanitariya norma və qaydalarına, gigiyena normativlərinə uyğunluğu yoxlanılmalı, o cümlədən onun komponentlərinin insan sağlamlığına təsiri klinik tədqiqatlar aparılmaqla müəyyən edilməlidir. Müalicəvi Naftalan nefti bəzi dəri xəstəliklərinin (dəmirov, atopik dermatit, neyrodermit) və dayaq-hərəkət sisteminin bəzi xəstəliklərinin müalicəsində uğurla tətbiq olunur. Tətbiqinə görə müalicəvi Naftalan nefti üç əsas istiqamətdə istifadə olunur: Naftalan müalicəsi, balneologiya və fizioterapiya, kosmetologiya. Bundan əlavə, Naftalan neftindən müxtəlif növ məhsulların alınması mümkündür, məsələn dərman və tibb vasitələri, müxtəlif növ kosmetoloji və gigiyenik vasitələr.

Müasir dövrdə sağlamlıq turizmi dünyada ən sürətlə inkişaf edən və gəlirliliyi yüksək olan turizm sahələrindən biridir. Bu sahə qlobal turizm sənayesində 10 faizdən çox paya sahib olmaqla dünya iqtisadiyyatına mühüm töhfə verir. Qlobal sağlamlıq turizmi

bazarının dəyəri 2023-cü ildə təqribi olaraq 26,3 milyard ABŞ dolları dəyərində müəyyənləşdirimişdir. Belə ki, 2024-cü ildən 2032-ci ilədək bu dəyərin 30,5 milyard dollardan 100,8 milyard dollara yüksəlməsi proqnozlaşdırılmışdır.

Türkiyənin sağlamlıq turizmi sektorunda gəlirlər ilbəil artmaqdadır. 2019-cu ildə Türkiyədə 750 mindən çox yerli və xarici turist sağlamlıq xidmətlərindən istifadə etmişdir. Həmin ildə sağlamlıq və müalicə məqsədilə Türkiyəni ziyarət edən xarici turistlərdən əldə edilən turizm gəlirləri 1,4 milyard ABŞ dolları dəyərində olmuşdur. COVID-19 pandemiyasından sonrakı dövrdə də bu sahənin inkişafı üçün strateji addımlar atılmışdır. Nəticədə 2024-cü ildə 1,5 milyon xarici turistlərə təqdim edilmiş xidmətlərdən 3 milyard ABŞ dolları gəlir əldə edilmişdir. Türkiyənin 2028-ci il üçün hədəfi bu rəqəmin 20 milyard ABŞ dollarına çatdırılması istiqamətindədir.

2024-cü ildə ABŞ-da sağlamlıq turizmi bazarının ümumi dəyəri təxminən 4,26 milyard ABŞ dolları olaraq qiymətləndirilmişdir. Beynəlxalq pasiyentlər tərəfindən seçilən əsas sahələr arasında onkologiya, kardiologiya, ortopedik cərrahiyyə və reproduktiv sağlamlıq xidmətləri üstünlük təşkil edir. Uzunmüddətli proqnozlara əsasən sağlamlıq turizmi bazar dəyərinin 2034-cü ilədək 8,74 milyard ABŞ dollarına çatacağı gözlənilir. 2025–2034-cü illər ərzində bazarın illik orta artım tempi 7,45 faiz olaraq proqnozlaşdırılır. Bu qlobal tendensiyalar fonunda Azərbaycanın sağlamlıq turizmi potensialının reallaşdırılması üçün Naftalan neftinin daha geniş tətbiq sahələrinin öyrənilməsi və onun müalicəvi təsirinin artırılması üçün müasir tibbi araşdırmaların və elmi tədqiqatların aparılması vacibdir. Bu istiqamətdə müvafiq laboratoriyanın işinin yaxşılaşdırılması, aparılan tibbi araşdırmaların və elmi tədqiqatların nəticələrinə dair elektron bazanın yaradılması, habelə beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi məqsədəuyğundur. Bu da öz növbəsində müalicəvi Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin geniş miqyasda öyrənilməklə beynəlxalq səviyyədə tanıdılmasında, müxtəlif tibbi məqsədlər üçün istfadəsinə imkanların yaradılmasında, sübut əsaslı göstərişin və əks-göstərişlərin müəyyən olunmasında, o cümlədən Azərbaycanda sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılmasında müəyyən çətinliklər yaradır. Klinik sınaqlar nəticəsində müəyyən ediləcək göstəriş, əks-göstərişlərə və klinik protokollara uyğun olaraq Naftalan neftinin tətbiqi ilə müalicənin həyata keçirilməsi pasiyent sayının artmasına, sağlamlıq turizminin inkişafına və müvafiq olaraq iqtisadi faydaların artımına imkan verəcəkdir.

Son dövrlərdə farmakologiya və biotexnologiya sahələrində Naftalan nefti və ondan alınan aktiv komponentlərin səmərəli istifadəsində yeni yanaşmalar meydana çıxmışdır. Həmin yanaşmaların öyrənilməsi və tətbiqi Naftalan neftinin dünya bazarında tanıdılmasına müsbət təsir göstərəcəkdir.

Azərbaycanın sağlamlıq turizmi potensialının reallaşdırılması üçün Naftalan neftinin daha geniş tətbiq sahələrinin öyrənilməsi və onun müalicəvi təsirinin artırılması məqsədilə müasir tibbi araşdırmaların və elmi tədqiqatların aparılması vacibdir. Bu istiqamətdə müvafiq laboratoriyanın işinin yaxşılaşdırılması, aparılan tibbi araşdırmaların və elmi tədqiqatların nəticələrinə dair elektron bazanın yaradılması, habelə beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi məqsədəuyğundur.

## 3. Mövcud vəziyyətin təhlili

Naftalan neftinin müalicəvi xüsusiyyətləri haqqında məlumatlara XVI əsrdəki mənbələrdə rast gəlinir. Hazırda dünyada müalicəvi Naftalan neftinin iki mənbəyi məlumdur: Azərbaycanda Naftalan şəhərinin yaxınlığında və Xorvatiyanın İvaniç Qrad şəhərində XX əsrin sonunda ilk dəfə çıxarılmış Naftalan nefti əsasında fəaliyyət göstərən "Naftalan" balneoterapevtik sanatoriya. Naftalan neftinin bioloji aktivliyi, orqanizmin funksiyalarına təsiri və müalicəvi effekti onun tərkibindəki naften karbohidrogenlərinin

hesabına təmin olunur. Naftalan şəhərində çıxarılan Naftalan neftinin tərkibindəki naften karbohidrogenlərinin miqdarının Xorvatiyada (İvaniç Qrad şəhəri) çıxarılan neft ilə müqayisədə yüksək olması onu unikal edir. XIX əsrin sonu XX əsrin əvvəlində alman mühəndis E.Yeqer tərəfindən Naftalan şəhərində Naftalan neftindən hazırlanmış məlhəm dünyanın bir çox ölkələrində dəri xəstəliklərinin müalicəsində istifadə olunmağa başlanılmışdır. Sonrakı dövrlərdə unikal xassələri öyrənilməyə başlanılan Naftalan nefti vannalar və müxtəlif applikasiyalar şəklində istifadə olunmuşdur. Keçən əsrin ortalarından Azərbaycanda bir çox tibb alimləri və kimyaçı alimlər tərəfindən Naftalan neftinin çıxarılması və emalı qaydaları praktiki olaraq istifadəyə verilmiş, bir çox eksperimental işlər aparılmış və kliniki istifadə qaydaları, həmçinin bəzi kosmetoloji prosedurların istifadə üsulları öyrənilərək tətbiq edilmişdir.

Naftalan nefti Naftalan şəhərində çıxarılan qəhvəyi-qonur rəngli, xüsusi aromatik qoxuya və yüksək özlülüyə malik, sıxlığı ≥ 0,92 q/sm$^3$, qaynama temperaturunun başlanğıcı 250-270°C, donma temperaturu (mənfi) -10-15°C intervalında dəyişən, politsiklik naften karbohidrogenləri 50-55 faiz təşkil edən, tərkibində sənaye neftlərindən fərqli olaraq benzin və kerosin kimi yüngül fraksiyalar olmayan, mürəkkəb fiziki-kimyəvi tərkibə malik, qatranlı, az kükürdlü və az parafinli unikal müalicəvi təsirə malik olan neft məhsuludur. Naftalan nefti fiziki-kimyəvi xassəsi və müalicəvi xüsusiyyətləri ilə başqa neftlərdən fərqlənir.

Ölkəmizdə dayaq-hərəkət sistemi, dəri, revmatizm və digər xəstəliklərin müalicəsində Naftalan neftindən sanatoriya-kurort müəssisələrində, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra – Nazirlik) Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda istifadə olunur. Həmin müəssisələrdə müalicəvi prosedurlar nativ Naftalan vanna qəbulu və yaxma şəklində həyata keçirilir.

Müalicəvi məqsədlər üçün istifadə olunan Azərbaycana məxsus Naftalan nefti 70-dən artıq xəstəliyin müalicəsində istifadə olunur, onların arasında sümük-əzələ, sinir sistemi, dəri, damar, ginekoloji, uroloji və digər xəstəliklər də vardır. Məsələn, Xorvatiyada çıxarılan və tibbi məqsədlər üçün istifadə olunan Naftalan neftinin atopik dermatit və psoriaz kimi xəstəliklərin istifadəsi ilə bağlı bəzi klinik tədqiqatlarda tətbiqinə dair azsaylı məlumatlar mövcuddur və tibbi istifadəyə dair ölkədə müəyyən edilmiş tibbi göstəriş və əks-göstərişlər təyin edilmişdir.

Azərbaycan dövlətinin turizm sahəsindəki siyasətində dəyişikliklərə yol açan “Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra digər təbii ehtiyatlarla yanaşı “müalicəvi Naftalan nefti” təbii müalicəvi ehtiyatı kimi müəyyən edilmiş, bu sahədə tənzimləmənin əsas istiqamətləri qanunvericiliklə tənzimlənmişdir. Eyni zamanda, təbii müalicə ehtiyatlarından istifadə hüququ və müalicə ehtiyatlarının işlənməsi və insan orqanizminə təsirinin xüsusiyyətləri Nazirliyin Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu tərəfindən elmi tədqiqatlar, çoxillik təcrübələr nəzərə alınmaqla müəyyən edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 125 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında kurortların 2009–2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi Naftalanın inkişafında keyfiyyətcə yeni istiqamətə ardıcıl olaraq özəl müalicə mərkəzlərinin yaranmasına, göstərilən xidmətlərin daha yüksək səviyyəyə çatdırılmasına səbəb olmuşdur, Naftalan nefti ilə aparılan müalicə və digər prosedurlar Azərbaycanda sağlamlıq və tibbi turizmin əsas aparıcı amilinə çevrilərək Azərbaycanda tibbi-müalicəvi turizmin inkişafına məhz Naftalanda start verilmişdir.

Naftalan nefti bu gün Azərbaycanın sağlamlıq turizmi sahəsində əsas təbii müalicə ehtiyatlarından biri kimi istifadə olunur. Tarixi kökləri XII əsrə gedib çıxan bu resurs ötən əsrin ortalarından etibarən Naftalan şəhərinin sanatoriya-kurort mərkəzinə çevrilməsində mühüm rol oynamışdır. Naftalan şəhərinin kurort potensialının gücləndirilməsi məqsədilə “Naftalan şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər

haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 mart tarixli 2707 nömrəli Sərəncamı imzalanmışdır. Həmin Sərəncam ilə Naftalan şəhərində abadlıq-quruculuq işlərinin aparılması, sanatoriya-kurort kompleksinin inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan vəsait ayrılmışdır.

Həmin Sərəncamdan sonra Naftalan şəhərində sanatoriya və müalicə-sağlamlıq mərkəzlərinin tikintisində artım müşahidə olunmuş və şəhər müasir turizm infrastrukturu ilə təmin edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 noyabr tarixli 474 nömrəli Qərarı ilə “Naftalan” Kurortu haqqında Əsasnamə” təsdiq edilmiş və şəhər rəsmi olaraq kurort statusu almışdır. Həmin Qərar Naftalanın sağlamlıq turizmi üzrə milli və beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin gücləndirilməsi istiqamətində hüquqi əsas yaratmışdır.

Hazırda Naftalan şəhərində yerləşən hotel və müalicə mərkəzlərində Naftalan vannalarında nativ Naftalan neftindən istifadə edilməklə müalicəvi prosedurlar aparılır. Bəzi tibbi prosedurlarda qatransız (təmizlənmiş) Naftalan nefti də istifadə olunur. Bu neft dərialtı hüceyrələrin selikli qişasını qıcıqlandırmır, qaşınma əleyhinə yararlıdır və istifadəsi daha rahatdır. Təmizlənmiş Naftalan neftindən alınan dərmanlar müxtəlif növ xəstəliklərin müalicəsində tətbiq olunur.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən Naftalanda ümumilikdə 19 yerləşdirmə müəssisəsi fəaliyyət göstərir. Bunların 13-ü sanatoriya, 5-i hotel və 1-i isə hostel tipli yerləşdirmə müəssisəsi kateqoriyasına aid edilir. 2023-cü ilin rəsmi statistik məlumatlarına əsasən bu müəssisələrdə ümumilikdə 561 nömrə fondu aktiv fəaliyyət göstərir. 2019-cu ildə Azərbaycana sağlamlıq məqsədilə gələn əcnəbi turistlərin sayı son 18 ildə ən yüksək göstərici sayıla biləcək həddə, yəni 63,9 min nəfərə çatmışdır. Həmin turistlərin 65,7 faizi (təxminən 42 min nəfər) məhz Naftalanın sanatoriya-kurort xidmətlərindən yararlanmışdır. Lakin növbəti ildən başlayaraq COVID-19 pandemiyasının sürətlə yayılması həm hava, həm də quru sərhədlərinin bağlanması səbəbi ilə bu rəqəm sürətlə azalaraq 2021-ci ildə 8,3 min nəfərə çatmışdır. Pandemiyanın sona çatması və beynəlxalq turizm bazarında nisbətən müsbət tendensiyanın başlaması ilə birlikdə bu rəqəm tədricən artaraq 2023-cü ildə 19,9 min nəfər turist sayına bərabər olmuşdur ki, bunun təxminən 40,2 faizi (8 min nəfəri) Naftalanın payına düşür. Ümumi ziyarətçi sayında əhəmiyyətli dərəcədə azalma müşahidə edilsə də, sağlamlıq məqsədilə ölkəni ziyarət edən əcnəbi turistlərin yarısı Naftalanı seçir. Bu fakt Naftalan neftinə olan etimadı və marağın əyani sübutudur. Xüsusilə MDB ölkələrindən gələn turistlər məsələn, Rusiya, Qazaxıstan, Ukrayna, Belarus və Özbəkistan vətəndaşları arasında Naftalan sağlamlıq destinasiyası kimi tanınır. Hazırda dünyada və regionda sağlamlıq turizmi destinasiyalarının rəqabətqabiliyyətli olması üçün müvafiq addımlar atılır və hər il bu istiqamətdə ölkələr tərəfindən bazar payının əldə olunması istiqamətində xidmət keyfiyyətinin artırılması, marketinq fəaliyyətlərinin genişləndirilməsi kimi işlər görülməkdədir.

Azərbaycanda Naftalan neftinə dair çoxsaylı elmi məqalə, müəssisədaxili araşdırmalar və monoqrafiyalar mövcuddur. Bu məlumatların vahid bazada toplanılmaması əldə olunmuş nailiyyətlərin və faydaların təhlilinə imkan vermir. Uzun illər müalicəvi Naftalan neftinin klinik təcrübədə və müalicəvi məqsədlər üçün istifadə olunmasına, müxtəlif növ məhsulların alındığına baxmayaraq beynəlxalq tələblərə və sübutlu təbabətin şərtlərinə cavab verən klinik tədqiqatlar aparılmamış, alınan məhsulların tərkibinə dair ayrıca standartlar, dövriyyəsini və istifadəsini tənzimləyən normativ hüquqi aktlar hazırlanmamışdır. Naftalan neftinin tibbi məqsədlərlə istifadəsinə dair bir çox araşdırma aparılsa da nəticələrin vahid məlumat bazasında toplanmadığı üçün geniş və sistematik təhlilinin aparılması mümkün olmamışdır.

Nazirliyin müvafiq laboratoriyalarında hazırda istehsal edilən və dövriyyədə olan Naftalan neftindən alınan rafinə olunmuş Naftalan yağı, Naftalan neftinin naften

karbohidrogenləri, qatransızlaşdırılmış Naftalan nefti əsasında hazırlanan kosmetik məhsullarda və yuyucu vasitələrdə fiziki-kimyəvi, toksiki elementlərin miqdarının təyini, radioloji və mikrobioloji müayinələr aparılmaqla gigiyenik sertifikatlar və toksikoloji-gigiyena rəyləri verilməkdədir. Həmçinin bu məhsuldan hazırlanan dərman vasitələri "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınmışdır və hazırda aptek təşkilatlarında satışı həyata keçirilir. Son dövrlərdə farmakologiya və biotexnologiya sahələrində Naftalan nefti və ondan alınan aktiv komponentlərin səmərəli istifadəsində yeni yanaşmalar meydana çıxmışdır. Həmin yanaşmaların öyrənilməsi və tətbiqi Naftalan neftinin dünya bazarında tanıdılmasına müsbət təsir göstərəcəkdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 268 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təbii müalicə ehtiyatlarından, müalicə-sağlamlaşdırma yerlərindən və kurortlardan istifadə Qaydası və rejimi"ndə təbii müalicə ehtiyatlarının keyfiyyəti onun tərkibində olan orqanizm üçün yararlı və zərərli elementlərin (maddələrin) təyini əsasında Nazirlik tərəfindən verilmiş balneoloji rəylə müəyyən edilməsi, həmçinin təbii müalicə ehtiyatlarının müalicəvi əhəmiyyəti və hazırkı vəziyyəti, müalicə-sağlamlaşdırma yerləri və kurortların ərazisi, onların müalicə ehtiyatlarını əks etdirən məlumatlar daxil olmaqla dövlət geoloji və sanitariya-epidemioloji ekspertizalar əsasında müəyyən edilsə də, Naftalan neftinə dair ayrıca bənd göstərilməmişdir. Həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər"də sanatoriya-kurort müəssisələrində ayrıca olaraq Naftalan neftinin tibb müəssisələrində istifadəsinə dair tələblər müəyyən edilməmişdir.

Naftalan neftinin tətbiqinə dair Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində Azərbaycan Standartlaşdırma İnstitutunun 2020-ci il 13 avqust tarixli əmri ilə təsdiq edilmiş AZS 886:2020 "Naftalan nefti nativ. Ümumi tələblər" dövlət standartında Naftalan nefti və balneologiya terminləri verilmiş, Naftalan neftinin tərkibi, balneologiya üçün istifadə olunan Naftalan neftinin sanitar-bakterioloji göstəriciləri, fiziki-kimyəvi xassələri və təhlükəsizlik tələbləri müəyyən edilmişdir. Bundan əlavə, Naftalan neftinin müalicəvi vanna yolu ilə qəbulu qaydaları, standartın tələblərinə uyğunluğuna dair dövri sınaqların aparılması və saxlanılması qeyd olunmuşdur. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanunu Naftalan neftinin təhlükəsizliyinə dair məcburi tələblərin müəyyən edilməsinə, həmin məcburi tələbləri müəyyən edən normativ hüquqi aktlara, eləcə də bu normativ hüquqi aktlar üzrə aparılan uyğunluğun məcburi qiymətləndirilməsi məsələlərinə şamil edilmədiyindən könüllü olan bu dövlət standartı ilə müəyyən edilmiş tələblər və qaydalar Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirini əhatə etmir. Eyni zamanda, Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və istifadə olunacaq sanatoriya-kurort müəssisələrinə paylanılması, göstəriş və əks-göstərişlərin müəyyən edilməsi, müalicə protokollarına dair əsasların yaradılması, tibb müəssisələrində istifadəsi, texniki dövriyyəsi, istifadədən sonra öz müalicəvi xüsusiyyətlərinin bərpası (regenerasiyası) və istifadə sonrası utilizasiya qaydalarını müəyyən etmir. Beynəlxalq istinadlar (ISO, ASTM, ГОСТ) əsasında hazırlanmış standartla müəyyən edilmiş tələblərdə və qaydalarda Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsiri əhatə edilməmişdir.

Naftalan neftinin terapevtik potensialı bu günədək tam şəkildə öyrənilməyib və onun müasir tibdə istifadəsi sistemli və mərhələli elmi tədqiqatlar tələb edir. Bu təbii resursun müasir yanaşmalarla geniş öyrənilməsi və tətbiq imkanlarının artırılması məqsədilə müvafiq araşdırmaların aparılması planlaşdırılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 noyabr tarixli 474 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naftalan" Kurortu haqqında Əsasnamə"də

“Naftalan” Kurortu (bundan sonra – Kurort) sanatoriya-kurort müəssisələrində müalicə-profilaktika işinin təşkilinə nəzarət, elmi-metodik və konsultativ yardım göstərilməsi, Naftalan neftinin resurslarına müvafiq və texnoloji istismar sxemi əsasında həyata keçirilməsi, eyni zamanda Kurortda müalicənin Nazirlik tərəfindən təsdiq edilmiş konkret göstəriş və əks-göstərişlərə uyğun həyata keçirilməsi müəyyən edilmişdir. Qeyd olunanlar Naftalan neftinin kurortlarda və kurortdankənar istifadəsinə, Nazirlik tərəfindən müəyyən edilmiş vahid çərçivəyə uyğun və elmi cəhətdən təsdiq edilmiş metodika əsasında tibbi xidmətin təşkilinin tənzimlənməsini zəruri edir.

## 4. Hədəf göstəricilər

4.1. Tədbirlər Proqramının hədəf göstəriciləri aşağıdakılardır:

4.1.1. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin araşdırılması;

4.1.2. Naftalan neftinin müalicəvi təsiri barədə aparılan tibbi araşdırmaların və elmi tədqiqatların nəticələrinin elektronlaşdırılması;

4.1.3. Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olması barədə təsdiqedici sənədlərin verilməsi;

4.1.4. Naftalan neftinin təkrar emalı;

4.1.5. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi istifadəsinə dair sənədlərin hazırlanması;

4.1.6. sanatoriya-kurort müəssisələrinə paylanılan Naftalan neftinin mövcud sanitariya norma və qaydalarına, gigiyena normativlərinə əməl edilməklə istifadəsinə nəzarət edilməsi, tərkibindəki zərərli komponentlərdən təmizlənərkən ətraf mühitin təhlükəsizliyinin qorunması;

4.1.7. Naftalan neftindən və ondan hazırlanan preparatlardan istifadə edən tibb işçilərinin biliklərinin təkmilləşdirilməsi;

4.1.8. Naftalan neftinə və ondan hazırlanan preparatlara dair əqli mülkiyyət hüquqlarının qorunması;

4.1.9. Naftalan neftinin müalicəvi xüsusiyyətlərinin, həmçinin Kurortun xarici ölkələrdə tanıdılması.

## 5. Tədbirlər Proqramının məqsədləri

5.1. Tədbirlər Proqramının əsas məqsədləri aşağıdakılardır:

5.1.1. Naftalan neftinin və ondan hazırlanan preparatların insan sağlamlığına təsirinin qiymətləndirilməsi və onun hansı xəstəliklərin müalicəsində istifadə olunmasının dəqiq müəyyən edilməsi;

5.1.2. Naftalan şəhərində Nazirliyin Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun tabeliyində mövcud olan Naftalan neftinə dair tibbi araşdırmaları və elmi tədqiqatları aparan laboratoriyanın işinin yaxşılaşdırılması;

5.1.3. Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olması barədə təsdiqedici sənədlərin verilməsinin hüquqi əsasının müəyyən edilməsi;

5.1.4. nativ Naftalan neftinin təkrar emalı texnologiyasının işlənməsi;

5.1.5. Naftalan neftinin müalicəvi təsiri barədə aparılan tibbi araşdırmaların, elmi tədqiqatların nəticələrinin elektronlaşdırılmasının təmin edilməsi;

5.1.6. Naftalan neftinin və ondan hazırlanan preparatların göstəriş və əks-göstərişlərinin müəyyən edilməsi, müalicəvi istifadəsi ilə bağlı sənədlərin təsdiqi;

5.1.7. Naftalan neftindən hazırlanan preparatlara dair tənzimləmənin müəyyən olunması;

5.1.8. Nazirlik tərəfindən Naftalan neftinin, eləcə də onun Kurortda istifadəsinin mövcud sanitariya norma və qaydalarına, gigiyena normativlərinə uyğunluğunun yoxlanılması;

5.1.9. Naftalan neftinin tərkibindəki zərərli komponentlər təmizlənərkən ətraf mühitin çirklənmədən qorunması üçün tədbirlərin görülməsi;

5.1.10. tibb işçilərinin tibbi və elmi biliklərinin artırılması;

5.1.11. Naftalan neftindən hazırlanan preparatlara milli və regional patentlərin alınması, habelə onların Patent Əməkdaşlığı Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi, eyni zamanda Naftalan neftinin coğrafi göstərici kimi qeydiyyata alınması;

5.1.12. Naftalan neftindən hazırlanan preparatların ixracını həyata keçirən sahibkarlıq subyektlərinin xarici bazarlara çıxışının təşviq edilməsi;

5.1.13. Naftalan neftinin Azərbaycanın "Medical Tourism Index (MTI)" reytinq siyahıları vasitəsilə tanıdılması;

5.1.14. Naftalan neftinin, o cümlədən Kurortun beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə xarici bazarlarda təşviqi istiqamətində tədbirlərin həyata keçirilməsi.

## 6. Tədbirlər Proqramının prioritet istiqamətləri

6.1. Tədbirlər Proqramı çərçivəsində Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmaların aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair müvafiq işlər aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçiriləcəkdir:

**6.1.1. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin elmi tədqiqatlar və klinik sınaqlar aparılmaqla öyrənilməsi:**

**6.1.1.1. Əsaslandırma:** Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi xassələrini, onların insan orqanizminə təsirinin xüsusiyyətlərinin müəyyən edilməsi üçün yerli və beynəlxalq təcrübə nəzərə alınmaqla geniş tədqiqatların, sınaqların aparılması, Nazirliyin Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun mövcud laboratoriyasının işinin təkmilləşdirilməsi, zərərli komponentlərdən (aromatik karbohidrogenlər, qatranlar, asfaltenlər, neft turşuları) təmizlənmiş ümumi fraksiyanın tədqiq olunması, nativ Naftalan neftinin təkrar emalı, o cümlədən əldə edilən nəticələrin elektron qaydada sistemləşdirilməsi vacibdir;

**6.1.1.2. Görüləcək tədbirlər:**

6.1.1.2.1. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin müəyyən edilməsi məqsədilə elmi tədqiqatların və klinik sınaqların aparılması üçün təşkilati və texniki tədbirlərin görülməsi;

6.1.1.2.2. Naftalan neftinin və ondan hazırlanan preparatların elmi tədqiqatlarının və klinik sınaqlarının aparılması;

6.1.1.2.3. Naftalan neftinin tibbi araşdırması və elmi tədqiqatın aparılması üçün Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun mövcud laboratoriyasının işinin təkmilləşdirilməsi;

6.1.1.2.4. klinik sınaqlarda Naftalan neftinin (zərərli komponentlərdən təmizlənmiş fraskiyasının) tətbiqi, o cümlədən nativ Naftalan neftinin təkrar emalı texnologiyasının işlənməsi;

6.1.1.2.5. Naftalan neftinin müalicəvi təsiri barədə aparılan tibbi araşdırmaların və elmi tədqiqatların nəticələrinin müvafiq dövlət informasiya ehtiyatında toplanılması;

**6.1.1.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin müəyyən edilməsi məqsədilə elmi tədqiqatların və klinik sınaqların aparılması üçün hazırlıq işlərinin tamamlanması;

6.1.1.3.2. Naftalan neftinin və ondan hazırlanan preparatların mərhələli şəkildə klinik sınaqlarının, o cümlədən elmi tədqiqatlarının aparılması;

6.1.1.3.3. Naftalan neftinin tibbi araşdırmasının və elmi tədqiqatının aparılması məqsədilə laboratoriyanın işinin təkmilləşdirilməsi;

6.1.1.3.4. nativ Naftalan neftinin təkrar emalı üzrə infrastrukturun yaradılması;

6.1.1.3.5. Naftalan neftinin müalicəvi təsiri barədə aparılan tibbi araşdırmaların və elmi tədqiqatların nəticələrinin müvafiq dövlət informasiya ehtiyatında toplanılması, aidiyyəti dövlət orqanlarının (qurumlarının) ona çıxışının təmin edilməsi, nəticələrin yerləşdirilməsi və həmin bazanın fəaliyyətinin təmin edilməsi;

**6.1.1.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. Naftalan neftinin tibbi araşdırmasının və elmi tədqiqatının aparılması məqsədilə laboratoriyanın işinin yaxşılaşdırılması, o cümlədən həmin araşdırmaların və tədqiqatların nəticələrinin əks olunduğu dövlət informasiya ehtiyatının yaradılması üçün kifayət qədər maliyyə vəsaiti və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması Tədbirlər Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına həyata keçirilə bilər;

**6.1.2. Aparılmış tibbi araşdırmalar və elmi tədqiqatlar, klinik sınaqlar nəticəsində Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi istifadəsi, göstəriş və əks-göstərişlərin müəyyən edilməsi, həmin preparatlara dair tələblərin texniki normativ hüquqi aktlarla müəyyən olunması:**

**6.1.2.1. Əsaslandırma:** Naftalan nefti və ondan hazırlanan preparatlardan müxtəlif xəstəliklərin müalicəsi zamanı istifadəsi, müalicənin təhlükəsiz və effektiv şəkildə həyata keçirilməsi üçün göstəriş və əks-göstərişlərin hazırlanması, klinik praktikada vahid yanaşma təmin edən klinik protokolların və metodiki tövsiyələrin hazırlanması, Naftalan neftinin istehsal metodlarına dair tələblərin müəyyən olunması, qəbulu və tətbiqi, habelə uyğunluğun qiymətləndirilməsi vacibdir;

**6.1.2.2. Görüləcək tədbirlər:**

6.1.2.2.1. Naftalan neftindən hazırlanan preparatlara dair tələblərin texniki normativ hüquqi aktlarla müəyyən olunması;

6.1.2.2.2. Naftalan neftinin və ondan hazırlanan preparatların göstəriş və əks-göstərişlərinin müəyyən edilməsi, müalicəvi istifadəsi ilə bağlı klinik protokolların və metodiki tövsiyələrin hazırlanması;

**6.1.2.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. Naftalan neftindən hazırlanan preparatlara dair texniki normativ hüquqi aktların layihələrinin hazırlanması və təsdiq olunması üçün aidiyyəti üzrə təqdim edilməsi;

6.1.2.3.2. Naftalan neftinin və ondan hazırlanan preparatların istifadəsi ilə bağlı klinik protokolların və metodiki tövsiyələrin təsdiq edildikdən sonra pasiyentlərin müalicəsində istifadə edilməsi;

**6.1.2.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. təsdiq olunmuş, tibb və sanatoriya-kurort müəssisələrinə paylanılmış sənədlərdən istifadə zamanı müəyyən suallar yarana bilər. Həmin sualların cavablandırılması üçün müəssisələrdə maarifləndirici təlimlər keçirilə bilər;

**6.1.3. Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olmasının müəyyən edilməsi məsələsinin qanunvericiliklə tənzimlənməsi:**

**6.1.3.1. Əsaslandırma:** Naftalan neftinin və ondan hazırlanan preparatların keyfiyyətinin və təhlükəsizliyinin yoxlanılması üçün müraciətin edilməsi və ona baxılması, təsdiqedici sənədlərin (məsələn, balneoloji rəyin, sertifikatın və ya pasportun) verilməsinin qanunvericiliklə tənzimlənməsinə ehtiyac vardır;

**6.1.3.2. Görüləcək tədbirlər:**

6.1.3.2.1. Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olması barədə təsdiqedici sənədlərin verilməsi ilə bağlı normativ hüquqi bazanın yaradılması;

**6.1.3.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olması barədə təsdiqedici sənədlərin müvafiq normativ hüquqi akt əsasında verilməsi;

**6.1.3.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. hazırlanan normativ hüquqi aktın (aktların) layihəsinin (layihələrinin) dövlət orqanları (qurumları) ilə razılaşdırılması mərhələsində ləngimələr baş verə bilər ki, bu risklərin azaldılması məqsədilə orqanlarla (qurumlarla) sıx əməkdaşlıq təmin edilməlidir;

**6.1.4. Sanatoriya-kurort müəssisələrinə paylanılan Naftalan neftinin mövcud sanitariya norma və qaydalarına, gigiyena normativlərinə əməl edilməsinə nəzarət, tərkibindəki zərərli komponentlərdən təmizlənərkən ətraf mühitin təhlükəsizliyinin qorunması:**

**6.1.4.1. Əsaslandırma:** insan sağlamlığının təhlükəsiz və ya zərərsiz amillərdən qorunması məqsədilə sanatoriya-kurort müəssisələrində istifadə olunan Naftalan neftinin saxlanılma şəraitinin, daşınmasının və istifadəsinin yoxlanılması, həmçinin onun ümumi fraksiya şəklində tədqiqi üçün tərkibindəki zərərli komponentlərdən təmizlənərkən ətraf mühitin çirklənməyə məruz qalmasının qarşısının alınması vacibdir;

**6.1.4.2. Görüləcək tədbirlər:**

6.1.4.2.1. Naftalan neftinin sanitariya norma və qaydalarına, gigiyena normativlərinə uyğun istifadəsinə tibbi nəzarətin həyata keçirilməsi;

6.1.4.2.2. Naftalan nefti tərkibindəki zərərli komponentlərdən təmizlənməsi zamanı ətraf mühitin təhlükəsizliyinin qorunmasının təmin edilməsi;

**6.1.4.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) yoxlamaların aparılması zamanı Naftalan neftinin mövcud olan dövlət standartlarına uyğunluğunun, sanitariya norma və qaydalarına əməl edilməsinin yoxlanılması nəticəsində aşkar olunan qüsurların aradan qaldırılması üçün tədbirlərin görülməsi;

6.1.4.3.2. Naftalan neftinin tərkibindəki zərərli komponentlərdən təmizlənməsi, o cümlədən nativ Naftalan neftinin təkrar emalı prosesinə qüvvədə olan qanunvericilik və ekoloji normativ sənədlər çərçivəsində ətraf mühitin təhlükəsizliyinin qorunması baxımından nəzarətin təmin edilməsi;

**6.1.4.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. nativ Naftalan neftinin təkrar emalı texnologiyasının işlənməsi zamanı müəyyən ləngimələr baş verə bilər. Bu məqsədlə işçi qruplar yaratmaqla müvafiq istiqamətdə fəaliyyətin daha çevik həyata keçirilməsi təmin edilə bilər;

**6.1.5. Kadr hazırlığı:**

**6.1.5.1. Əsaslandırma:** yeni yaradılacaq sübutlu tibbi və elmi-metodik baza əsasında Naftalan nefti və ondan hazırlanan preparatlardan istifadə edən tibb müəssisələrinin, sanatoriya-kurort, o cümlədən Naftalan kurortlarının tibb işçilərinin yeni məlumatlara uyğun bilik və bacarıqlarının artırılmasına ehtiyac yaranacaqdır;

**6.1.5.2. Görüləcək tədbirlər:**

6.1.5.2.1. Naftalan nefti və ondan hazırlanan preparatlardan istifadə edən tibb və sanatoriya-kurort müəssisələrində, o cümlədən Kurortda çalışan tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi;

**6.1.5.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. Naftalan nefti və ondan hazırlanan preparatlardan istifadə edən tibb və sanatoriya-kurort, o cümlədən Kurortda çalışan tibb işçilərinin bilik və bacarıqlarının artırılması;

**6.1.5.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.4.1. fəaliyyət göstərən müəssisələrin sayının çox olması təlimlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuş müddətin buraxılmasına səbəb ola bilər. Təlimlərin tibb sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşklatları ilə əməkdaşlıq çərçivəsində həyata keçirilməsi prosesin vaxtında icrasını mümkün edə bilər;

**6.1.6. Naftalan neftinin və ondan hazırlanan preparatların beynəlxalq səviyyədə tanıdılması:**

**6.1.6.1. Əsaslandırma:** Azərbaycanın unikal təbii ehtiyatı olan Naftalan neftinin və ondan hazırlanan preparatların patentləşdirilməsi yolu ilə onları benəlxalq səviyyədə tanıtdırmağa, hüquqlarını qorumağa, saxtalaşdırma və mənimsəmə hallarından müdafiəyə ehtiyac yaranır. Naftalan neftindən hazırlanan preparatların xarici bazarlarda təşviqi ilə "Made in Azerbaijan" brendinə etibarın və nüfuzun artırılmasına, yeni ixrac bazarlarının açılmasına, yerli istehsalçılar üçün investisiya imkanlarının genişlənməsinə, sağlamlıq turizminin inkişafına, aparılmış klinik nəticələrin tanıdılmasına və təbliğinə zərurət vardır;

**6.1.6.2. Görüləcək tədbirlər:**

6.1.6.2.1. Naftalan neftinə və ondan hazırlanan preparatlara dair əqli mülkiyyət hüquqlarının qorunmasının təmin olunması;

6.1.6.2.2. Naftalan neftindən hazırlanan preparatların, o cümlədən Kurortun xarici bazarlarda təşviqinin həyata keçirilməsi;

6.1.6.2.3. aparılmış klinik sınaqların nəticələrinin milli və beynəlxalq səviyyədə tanıdılması və təbliği;

**6.1.6.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.6.3.1. Naftalan neftinə və ondan hazırlanan preparatlara dair yerli və beynəlxalq təşkilatlar tərəfindən verilən təsdiqedici sənədlərin alınması;

6.1.6.3.2. Naftalan neftindən hazırlanan preparatların, o cümlədən Kurortun sərgi və konfranslarda təmsil olunmaqla xarici bazarlarda tanıdılması;

6.1.6.3.3. beynəlxalq əməkdaşlıq çərçivəsində xəstəliklərlə mübarizə sahəsində Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsiri barədə məlumat mübadiləsinin aparılması və preparatların effektivliyini sübut edən, bioloji effektlərinə dair elmi məqalələrin, təqdiqat nəticələrinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc edilməsi, məqalələrin və digər məlumatlandırıcı materialların hazırlanması, materialların beynəlxalq elmi-praktik konfranslarda və simpoziumlarda təqdim edilməsi, Azərbaycanın "Medical Tourism Index (MTI)" reytinq siyahısında olması çərçivəsində Naftalan neftinin tanıdılması;

**6.1.6.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.6.4.1. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi xüsusiyyətlərinin beynəlxalq miqyasda tanıdılması məqsədilə beynəlxalq səviyyədə keçirilən müxtəlif tədbirlərdə iştirak, həmçinin bu cür tədbirlərin Naftalan şəhərində də təşkili zamanı maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması Tədbirlər Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına həyata keçirilə bilər.

## 7. Maliyyələşdirmə mexanizmləri

Tədbirlər Planında qeyd olunan tədbirlərin icrasının təmin etmək məqsədilə tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait çərçivəsində, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir. Tədbirlər

Proqramının icrasının səmərəliliyini artırmaq məqsədilə kreditlər, qrantlar və qanunda nəzərdə tutulmuş digər maliyyə mənbələri cəlb edilə bilər.

**“2026–2029-cu illər üçün Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair Tədbirlər Proqramı”nın həyata keçirilməsi üzrə**

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **Prioritet 1. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin elmi tədqiqatlar və klinik sınaqlar aparılmaqla öyrənilməsi** | | | | | | | |
| 1.1. | Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin müəyyən edilməsi məqsədilə elmi tədqiqatların və klinik sınaqların aparılması üçün təşkilati və texniki tədbirlərin görülməsi | SN | ETN | 2026–2028 | Elmi tədqiqat və klinik sınaq üçün Naftalan neftinin və ondan hazırlanan preparatların seçilməsi | Elmi tədqiqat və klinik sınaq üçün beynəlxalq məsləhətçi şirkətin cəlb olunması və onunla elmi və təcrübə mübadiləsinin aparılması | Elmi tədqiqat və klinik sınaq üçün hazırlıqların tamamlanması |
| 1.2. | Naftalan neftinin və ondan hazırlanan preparatların elmi tədqiqatlarının və klinik sınaqlarının aparılması | SN | ETN | 2026–2028 | Preklinik mərhələdə müasir analitik texnologiyalar vasitəsilə Naftalan neftinin bioloji aktiv komponentlərinin tərkibinin və struktur xüsusiyyətlərinin dəqiq müəyyən edilməsi, İn silico modelləşdirmə | Klinik sınaqların I fazasında Naftalan neftinin könüllü sınağa cəlb edilmiş şəxslər vasitəsilə təhlükəsizliyi, farmakokinetikası, farmakodinamikası, insan üzərində müşahidə olunan metabolizm prosesi və toksikliyi və ona | Klinik sınaqların III fazasında Naftalan neftindən alınan preparatın effektivliyi və təhlükəsizliyi, terapevtik istifadəsinin öyrənilməsi. Klinik sınaqların IV fazasında dövlət qeydiyyatına alınmış dərman vasitəsinin farmokoloji əlavə |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | üsullarından istifadə olunması | qarşı dözümlülüyün qiymətləndirilməsi. Klinik sınaqların II fazasında pasiyentlər üzərində tədqiqatların aparılması və doza/təsir əlaqəsinin müəyyən edilməsi | təsirinin yoxlanılması. Aparılan sınaqların nəticələrinin təhlil edilməsi |
| 1.3. | Naftalan neftinin tibbi araşdırması və elmi tədqiqatın aparılması üçün Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun mövcud laboratoriyasının işinin təkmilləşdirilməsi | SN | İN, MN, NŞİH | 2026–2027 | Naftalan neftinin tibbi araşdırmasının və elmi tədqiqatın aparılması məqsədilə avadanlıqların sifariş edilməsi | Mövcud laboratoriyanın tibbi kadrlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi | Aparılan tədqiqatların effektivliyinin və keyfiyyətinin artması, innovativ metodların tətbiqinin genişlənməsi, kadrların peşəkarlığının yüksəldilməsi |
| 1.4. | Klinik sınaqlarda Naftalan neftinin (zərərli komponentlərdən təmizlənmiş fraskiyasının) tətbiqi, o cümlədən nativ Naftalan neftinin təkrar emalı texnologiyasının işlənməsi | ETN | ETSN, SN | 2028 | Naftalan neftinin (zərərli komponentlərdən təmizlənmiş fraskiyasının) tətbiqi, o cümlədən nativ Naftalan neftinin təkrar emalı texnologiyasının yaradılması üçün beynəlxalq təcrübənin öyrənilməsi və təkliflərin hazırlanması | Nativ Naftalan neftinin təkrar emalı üçün pilot texnologiyaların seçilərək sınaqdan keçirilməsi | Nativ Naftalan neftinin təkrar emalı üzrə infrastrukturun yaradılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1.5. | Naftalan neftinin müalicəvi təsiri barədə aparılan tibbi araşdırmaların, elmi tədqiqatların nəticələrinin müvafiq dövlət informasiya ehtiyatında toplanması | SN | RİNN, ETN | 2026–2028 | Aparılan tibbi araşdırmaların və elmi tədqiqatların nəticələrinin əks olunduğu dövlət informasiya ehtiyatının yaradılması üçün məlumatların tərkibinin və hüquqi əsasının müəyyən edilməsi və məqsədəuyğunluq rəyinin alınması üçün aidiyyəti üzrə müraciət edilməsi, müvafiq normativ hüquqi aktın layihəsinin hazırlanması və təsdiqi üçün təqdim edilməsi | Müvafiq dövlət informasiya ehtiyatının formalaşdırılması və dövlət orqanlarının (qurumlarının) ona çıxışının təmin edilməsi | Naftalan neftinin müalicəvi təsiri barədə aparılan tibbi araşdırmaların, elmi tədqiqatların nəticələrinin müvafiq dövlət informasiya ehtiyatında toplanması |
| **Prioritet 2. Aparılmış tibbi araşdırmalar və elmi tədqiqatlar, klinik sınaqlar nəticəsində Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi istifadəsi, göstəriş və əks-göstərişlərin müəyyən edilməsi, həmin preparatlara dair tələblərin texniki normativ hüquqi aktlarla müəyyən olunması** | | | | | | | |
| 2.1. | Naftalan neftindən hazırlanan preparatlara dair tələblərin texniki normativ hüquqi aktlarla müəyyən olunması | AİBNDA | İN, ETN, SN | 2026–2027 | Texniki normativ hüquqi aktların layihələrinin hazırlanması | Layihələrin aidiyyəti orqanlarla (qurumlarla) razılaşdırılması | Müvafiq layihələrin təsdiq olunması üçün aidiyyəti üzrə təqdim edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2.2. | Naftalan neftinin və ondan hazırlanan preparatların göstəriş və əks-göstərişlərinin müəyyən edilməsi, müalicəvi istifadəsi ilə bağlı klinik protokolların və metodiki tövsiyələrin hazırlanması | SN | ETN, DTA, ETSN | 2027–2028 | Naftalan neftinin və ondan hazırlanan preparatların göstəriş və əks-göstərişlərinin müəyyən edilməsi, müalicəvi istifadəsi ilə bağlı klinik protokolların, metodiki tövsiyələrlə bağlı təkliflərin hazırlanması məqsədilə mütəxəssislərdən ibarət işçi qrupun (qrupların) yaradılması | İşçi qrup (qruplar) tərəfindən hazırlanan göstəriş və əks-göstərişlərin, klinik protokolların, metodiki tövsiyələrin aidiyyəti üzrə təsdiq üçün təqdim edilməsi və təsdiq edilmiş tibb müəssisələrinə, sanatoriya-kurort müəssisələrinə paylanılması | Pasiyentlərin müalicəsində təsdiq edilmiş sənədlərdən istifadə olunması |
| **Prioritet 3. Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olmasının müəyyən edilməsi məsələsinin qanunvericiliklə tənzimlənməsi** | | | | | | | |
| 3.1. | Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olması barədə təsdiqedici sənədlərin verilməsi ilə bağlı normativ hüquqi bazanın yaradılması | SN | ETN, AİBNDA, DTA | 2026–2029 | Naftalan neftinin keyfiyyətli və təhlükəsizlik olması ilə bağlı təsdiqedici sənədlərin verilməsi qaydasının normativ hüquqi aktla (aktlarla) tənzimlənməsi məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən və mütəxəssislərindən ibarət işçi qrupun yaradılması | İşçi qrup tərəfindən beynəlxalq təcrübə nəzərə alınmaqla normativ hüquqi aktın (aktların) layihəsinin hazırlanması və təsdiq edilməsi üçün aidiyyəti üzrə təqdim edilməsi | Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olması barədə təsdiqedici sənədlərin müvafiq normativ hüquqi akt əsasında verilməsi |

| Prioritet 4. Sanatoriya-kurort müəssisələrinə paylanılan Naftalan neftinin mövcud sanitariya norma və qaydalarına, gigiyena normativlərinə əməl edilməsinə nəzarət, tərkibindəki zərərli komponentlərdən təmizlənərkən ətraf mühitin təhlükəsizliyinin qorunması | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4.1. | Naftalan neftinin sanitariya norma və qaydalarına, gigiyena normativlərinə uyğun istifadəsinə tibbi nəzarətin həyata keçirilməsi | SN | DTA | 2026–2029 | Naftalan nefti vasitəsilə müalicəni həyata keçirmək üçün bu fəaliyyəti həyata keçirən müəssisələr, o cümlədən özəl tibb fəaliyyətinə verilən lisenziya əsasında fəaliyyət göstərən sanatoriya-kurort müəssisələrində müvafiq olaraq plan üzrə (növbəti) və plandankənar yoxlamaların aparılması məqsədilə zəruri işlərin görülməsi | Yoxlamaların aparılması | Yoxlamaların aparılması zamanı Naftalan neftinin mövcud olan dövlət standartlarına uyğunluğunun və sanitariya norma və qaydalarına əməl edilməsinin yoxlanılması nəticəsində aşkar olunan qüsurların aradan qaldırılması məqsədilə tədbirlərin görülməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4.2. | Naftalan neftinin tərkibindəki zərərli komponentlərdən təmizlənməsi zamanı ətraf mühitin təhlükəsizliyinin qorunmasının təmin edilməsi | ETSN | SN, ETN | 2028 | Naftalan neftinin tərkibindəki zərərli komponentlərdən təmizlənməsi, o cümlədən nativ Naftalan neftinin təkrar emalı prosesi ilə əlaqədar daxil olan layihələrin ətraf mühitin təhlükəsizliyinin qorunması baxımından ekspertizası | Naftalan neftinin tərkibindəki zərərli komponentlərdən təmizlənməsi, o cümlədən nativ Naftalan neftinin təkrar emalı prosesindən alınan məhsulların ətraf mühitə təsirlərinin öyrənilməsi, nəticələrin ümumiləşdirilməsi, bu sahədə təkliflərin verilməsi | Naftalan neftinin tərkibindəki zərərli komponentlərdən təmizlənməsi, o cümlədən nativ Naftalan neftinin təkrar emalı prosesinə qüvvədə olan qanunvericilik və ekoloji normativ sənədlər çərçivəsində ətraf mühitin təhlükəsizliyinin qorunması baxımından nəzarətin təmin edilməsi |
| **Prioritet 5. Kadr hazırlığı** | | | | | | | |
| 5.1. | Naftalan neftindən və ondan hazırlanan preparatlardan istifadə edən tibb və sanatoriya-kurort müəssisələrində, o cümlədən Naftalan Kurortunda çalışan tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi | SN | ETN | 2027–2029 | Xəstəliklərin müalicəsində Naftalan neftindən və ondan hazırlanan preparatlardan istifadə edən tibb işçiləri üçün təlimlərin, ixtisasartırma kurslarının proqramının hazırlanması və təsdiq edilməsi | Tibb işçilərinin təlimlərə, ixtisasartırma kurslarına cəlb edilməsi | Naftalan neftindən və ondan hazırlanan preparatlardan istifadə edən tibb müəssisələrinin, sanatoriya-kurort, o cümlədən Naftalan kurortlarının tibb işçilərinin bilik və bacarıqlarının artırılması |
| **Prioritet 6. Naftalan neftinin və ondan hazırlanan preparatların beynəlxalq səviyyədə tanıdılması** | | | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 6.1. | Naftalan neftinə və ondan hazırlanan preparatlara dair əqli mülkiyyət hüquqlarının qorunmasının təmin olunması | ƏMA | SN, ETN, DTA | 2027–2028 | Naftalan neftindən hazırlanan preparatlara milli və regional patentlərin alınması, habelə onların Patent Əməkdaşlığı Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi, eyni zamanda Naftalan neftinin coğrafi göstərici kimi qeydiyyata alınması imkanlarının qiymətləndirilməsi | Seçilmiş məhsullar üzrə milli və regional patentlərin alınması, habelə onların Patent Əməkdaşlığı Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi, eyni zamanda Naftalan neftinin coğrafi göstərici kimi qeydiyyata alınması məqsədilə sənədlərin toplanılması və aidiyyəti üzrə müraciətlərin olunması | Naftalan neftinə və ondan hazırlanan preparatlara dair yerli və beynəlxalq təşkilatlar tərəfindən verilən təsdiqedici sənədlərin alınması |
| 6.2. | Naftalan neftindən hazırlanan preparatların, o cümlədən "Naftalan" Kurortunun xarici bazarlarda təşviqinin həyata keçirilməsi | İN | DTA, NŞİH | 2027–2028 | Naftalan neftindən hazırlanan preparatların ixracı, o cümlədən "Naftalan" Kurortunun tanıdılması üçün yeni və mövcud ixrac bazarlarına çıxış imkanlarının tədqiqi | Aparılan tədqiqatın nəticələrinin sahibkarlara çatdırılması və onlara dəstəyin göstərilməsi | Naftalan neftindən hazırlanan preparatların, o cümlədən "Naftalan" Kurortunun sərgi və konfranslarda təmsil olunmaqla xarici bazarlarda tanıdılması |
| 6.3. | Aparılmış klinik sınaqların nəticələrinin milli və beynəlxalq | SN | ETN, DTA, SOCAR, AVŞ | 2027–2029 | Naftalan neftinin və ondan hazırlanan preparatlar üzrə aparılmış klinik | Əhali arasında Naftalan neftinin və ondan hazırlanan preparatların | Beynəlxalq əməkdaşlıq çərçivəsində xəstəliklərlə mübarizə sahəsində Naftalan |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | səviyyədə tanıdılması və təbliği | | | | sınaqların nəticələrinə dair müalicəvi xüsusiyyətlərin milli səviyyədə təbliği, regional və beynəlxalq miqyasda tanıdılması və xarici bazarlarda təşviqi üçün kommunikasiya planının və xarici ölkələrdə təşviq planının hazırlanması, komminikasiya planına Naftalanın terapevtik tətbiqinə, onun tarixinə, mövcud vəziyyətinə və inkişaf perspektivlərinə dair məlumatların daxil edilməsi | müalicəvi təsiri barədə media vasitəsilə məlumatlılığın artırılması, beynəlxalq miqyasda tanınma və tibb sahəsində geniş istifadəni təmin etmək məqsədilə müxtəlif tədbirlərin görülməsi, seminarlar, beynəlxalq elmi-praktik konfrans, konqres, konfrans, o cümlədən Naftalan şəhərində və simpoziumlarda genişmiqyaslı təbliğat və təşviqat kampaniyasının həyata keçirilməsi, xarici mütəxəssislərin Naftalan nefti ilə tanış olmalarına şəraitin yaradılması | neftinin və ondan hazırlanan preparatların müalicəvi təsiri barədə məlumat mübadiləsinin aparılması və preparatların effektivliyini sübut edən, bioloji effektlərinə dair elmi məqalələrin, tədqiqat nəticələrinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc edilməsi, məqalələrin və digər məlumatlandırıcı materialların hazırlanması. Aparılmış tədqiqatlar nəticəsində əldə edilmiş materialların beynəlxalq elmi-praktik konfranslarda və simpoziumlarda təqdim edilməsi. Azərbaycanın “Medical Tourism Index (MTI)” reytinq siyahısında olması çərçivəsində Naftalan neftinin tanıdılması |

## AKRONİMLƏR

| | |
|---|---|
| **İN** | – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi |
| **ETN** | – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi |
| **ETSN** | – Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **MN** | – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| **RİNN** | – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| **SN** | – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi |
| **SOCAR** | – Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti |
| **AİBNDA** | – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi |
| **AVŞ** | – Azərbaycan Respublikasının Audiovizual Şurası |
| **DTA** | – Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi |
| **ƏMA** | – Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi |
| **NŞİH** | – Naftalan Şəhər İcra Hakimiyyəti |